DÖVLƏT VERGİ XİDMƏTİ

# Üfüqi monitorinqin tətbiqinə start verildi!

2026-cı ildən etibarən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən üfüqi monitorinq tətbiq olunur. Bu mexanizm vergi nəzarətinə yeni yanaşmadır və könüllü əməkdaşlıq prinsipi əsasında qurulur.

## Üfüqi monitorinq nədir?

Üfüqi monitorinq – vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarətin şəffaf və açıq əməkdaşlıq formatında həyata keçirilməsidir.

**Monitorinq:**

- Təqvim ili üzrə aparılır;
- Başlandığı tarixdən əvvəlki bir ili əhatə edir;
- 6 ay müddətində başa çatdırılır (zərurət olduqda 2 ayadək uzadıla bilər).

## Kimlər qoşula bilər?

Üfüqi monitorinqə aşağıdakı şərtlərə cavab verən vergi ödəyiciləri qəbul edilir:

- Orta və iri sahibkarlıq subyektləri;
- Mühasibat və vergi uçotunu

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

avtomatlaşdırılmış proqram təminatı ilə aparanlar;
- Daxili nəzarət sistemi və vergi risklərinin idarə edilməsi mexanizmi tətbiq edənlər.

Riskli vergi ödəyiciləri və barəsində cinayət işi olan subyektlər bu mexanizmə qəbul edilmir.

**Əsas üstünlüklər**

- Monitorinq dövrü üzrə səyyar və kameral vergi yoxlamaları aparılmır (müəyyən istisnalar nəzərə alınmaqla)
- 15 gün ərzində dəqiqləşdirilmiş bəyannamə təqdim etmək imkanı
- Daxili nəzarət sistemi vasitəsilə əvvəlcədən açıqlanan uyğunsuzluqlara görə maliyyə sanksiyası tətbiq edilmir
- Amortizasiya metodunun seçimi imkanı (düz xətt və ya azalan qalıq metodu)
- Şəffaf və proqnozlaşdırıla bilən nəzarət mühiti

**Könüllü açıqlama imkanı**

Səyyar vergi yoxlaması və ya üfüqi monitorinq başa çatdıqdan sonra aşkar edilməmiş vergi öhdəlikləri könüllü şəkildə bəyan edilə bilər. Bu yanaşma vergi intizamının gücləndirilməsinə və şəffaflığın artırılmasına xidmət edir.

**Qeyd:** daha ətraflı məlumatı **“Üfüqi monitorinq”** adlı bukletdən əldə edə bilərsiniz.

BAKI — 2026